MÜQAVİLƏ No_____

Bakı şəhəri "__"________ 2009- cu il

Bir tərəfdən, Azərbaycan Respublikası Milli Bankının 01 fevral 2006-cı il tarixli, 06/06-224 N-li lisenziyası olan və irəlidə "Bank" adlanan "Royalbank"ASC, Bank Kartları Departamentinin direktoru __________, ikinci tərəfdən irəlidə "Müəssisə" adlanan, "_________________", nizamnamə əsasında fəaliyyət göstərən direktor ____________________şəxsində və üçüncü tərəfdən irəlidə "AzəriKard" adlanan, nizamnamə əsasında fəaliyyət göstərən Baş direktor ______________ şəxsində, üçü bir yerdə Tərəflər adlanacaq, aşağıdakılar haqqında bu müqaviləni bağlamışlar:

**ƏSAS ANLAYIŞLAR:**

**Kart**: **- American Express.** ödəniş bank kartları;
**Hesab** (slip): Kart vasitəsi ilə aparılan əməliyyata dair hesab-bildiriş.
**Card Recovery Bulletin** (Xəbərdaredici siyahı): Fəaliyyəti dayandırılmış kartların siyahısı.
**Avtorizasiya**: Bank tərəfindən müəyyən edilən hədd aşıldıqda Müəssisəyə kart qəbulu əməliyyatlarının aparılmasına icazə verilməsi.
**Hesablasma məlumat**.: Müəssisənin təqdim etdiyi hesablar əsasında "AzəriKard" tərəfindən hazırlanan və Müəssisə ilə hesablaşmaların aparılması üçün zəruri olan məlumat.
**Avadanlıq**: Bank tərəfindən Müəssisəyə verilən və kartlarla əməliyyatların aparılması üçün zəruri olan avadanlıq : imprinterlər, POS-terminallar, hesablar, toplu hesablar, təlimatlar və reklam-məlumat məhsulları.
**POS-terminal**: Kartın arxa tərəfində olan məlumatı, onun maqnit zolağından və ya kartın üzərində olan çipdən oxumaq, habelə əməliyyatlar haqqında məlumatla birlikdə qeydə almaq üçün Müəssisə tərəfindən kart qəbul edilərkən istifadə edilən qurğu.
**PIN-pad** - PIN kodun (kart sahibinin şəxsi identifikasiya nömrəsi) yeridilməsi üçün POS terminallara quraşdırılan əlavə qurğu.
**İmprinter**: Məlumatları əl ilə kartdan slipə keçirmək üçün Bank tərəfindən verilən cihaz.
**Kartın sahibi**: Kartdan istifadə etmək hüququna malik olan şəxs.
**Hədd** Qabaqcadan avtorizasiya alınmadan Müəssisənin plastik Kartla apara biləcəyi əməliyyatların Bankın müəyyən etdiyi ümumi məbləğ.
**AZN**: Denominasiya olunmuş Azərbaycan manatı.

**1.MÜQAVİLƏNİN PREDMETI**

1.1. AMERICAN EXPRESS–in acquiring (alıcısı) lisenziyanın sahibi kimi müvafiq hüquq və səlahiyyətlərə malik olan Bank, Müəs-sisəni vəkil edir ki, yuxarıda göstərilən kartları malların və xidmətlərin alınması müqabilində qəbul etsin.
Bank kartlarla aparılmış əməliyyatların məbləğini bu Müqavilənin 3.1-ci bəndlərində göstərilən bank komisyon haqqını çıxdıqdan sonra Müəssisənin müvafiq bank hesabına köçürür. Müəssisə "AzəriKard"ın əlavə texniki xidmətlərindən istifadə etdiyi halda, bu müqavilənin 4-cü bəndinə uyğun olaraq, "AzəriKard"a xidmət haqqı ödəyir.
"AzəriKard" Müəssisə tərəfindən kartlarla əməliyyatların aparılması üçün texniki imkanı yaradır, hesabları işləyib hazırlayır və hesablaşma məlumatını Banka təqdim edir.

**2.TƏRƏFLƏRİN HÜQUQLARI VƏ VƏZİFƏLƏRİ**

***2.1. Bank aşağıdakıları, öhdəsinə göturur***
2.1.1 "AzəriKard" tərəfindən hazırlanmış hesablaşma məlumatları Banka verildiyi tarixdən etibarən 7 (yeddi) iş günü ərzində, kartlarla aparılmış əməliyyatların məbləğini bu Müqavilənin 3.1-ci bəndində nəzərdə tutulmuş komisyon haqqını çıxdıqdan sonra Müəssisənin hesabına köçürür.
2.1.2. Birbaşa və ya digər təşkilat ilə bağlanmış müqaviləyə uyğun olaraq, Müəssisəni plastik kartların akseptləşdirilməsi üçün zəruri olan avadanlıqla təmin edir. Müəssisəyə verilən avadanlıq onu təmin edən təşkilatın mülkiyyətidir və Müqavilənin müddəti qurtardıqdan sonra Müəssisə həmin avadanlığın təhvil-təslim aktına əsasən geri qaytarmalıdır.

***2.2. Bank aşağıdakı, hüquqlara malikdir:***
2.2.1. Sonrakı hesablaşmalardan aşağıdakı məbləğləri tutmaq:
-bu Müqavilənin 5.6-cı bəndinə uyğun olaraq, etibarsız hesablar üzrə Bank tərəfindən Müəssisənin hesabına köçürülmüş məbləğləri;
-hər hansı mübahisələrə və ya ixtilaflara səbəb olan hesablar əsasında Bank tərəfindən Müəssisənin hesabına köçürülmüş məbləğləri;
-Müəssisə tərəfindən təqdim olunmuş qaytarma hesablarının məbləğlərini;
-qanunvericiliklə nəzərdə tutumuş digər məbləğləri.

2.2.2. Tutulası məbləğlər Müəssisənin hesabına köçürüləsi məbləğlərdən çox olduqda, yəni müqavilənin 2.2.1-ci bəndində sadalanan məbləğlərinsonrakı hesablaşmalardan tutulması mümkün olmadıqda, Müəssisəyə yazılı bildiriş göndərərək həmin fərqin Banka qaytarılmasını Müəssisədən tələb etmək.
2.2.3. Müəssisə göstərilən qayda və öhdəhklərə riayət etmədikdə (reklam-məlumat xarakterli vasitələrinin olmaması və s.), bu müqavilənin 2.1.1-ci bəndindəki öhdəhklərinin yerinə yetirilməsini dayandırmaq.
2.2.4 Müəssisə qanun pozuntularının törədilməsinə görə müvafiq orqanlar tərəfindən qanunvericiliklə müəyyən olunan sanksiyalara məruz qaldıqda, bu müqavilənin 2.1.1-ci bəndində göstərilən məbləğləri dondurmaq.
2.2.5 Müəssisənin həyata keçirdiyi kart əməliyyatlarının həcmi artıldığı təqdirdə Bank bu müqavilənin 3-cü maddəsində göstərilən xidmət haqları üzrə güzəşt tətbiq edə bilər.
2.2.6. Bank, yaydığı və ya istifadə etdiyi bütün reklam materiallarında (o cümlədən, reklam kitabçaları və digər nəşrlərdə), həmçinin Banka və beynəlxalq ödəniş sistemlərinə İnternet şəbəkəsində məxsus olan Web-saytlarda, Müəssisəyə aid aşağıda sadalananlara istinad(istifadə) edə bilər:
a) Müəssisənin adı(həmçinin ticari adı)
b) Ünvanları
c) Əlaqə telefonları
ç) Əmtəə nişanları və loqotipləri
Bank, Müəssisənin mal və xidmətlərə görə ödəniş vasitəsi kimi kart qəbulunu həyata keçirtdiyini təsdiqləyən məlumatı, yaydığı və ya istifadə etdiyi bütün reklam materiallarında (o cümlədən, reklam kitabçaları və digər nəşrlərdə), həmçinin Banka və beynəlxalq ödəniş sistemlərinə İnternet şəbəkəsində məxsus olan Web-saytlarda yerləşdirə bilər.

***2.3. Muəssisə aşağıdakıları, ohdəsinə götürür:***
2.3.1. Satılan mallar (göstərilən xidmətlər) müqabilində müştərilərindən kartları qəbul edərək, digər tədiyyə vasitələri ilə, o cümlədən nağd pula satılan qiymətlərə bərabər olaraq, kartlarla ödənişlərin aparılmasını təmin etmək və kart sahiblərinin üzərinə heç bir əlavə xərc qoymamaq.
2.3.2. Kartlarla əməliyyatları bu Müqavilənin 5-ci bölməsində müəyyən edilmiş qaydalara uyğun surətdə aparmaq və hesablarda əks etdirilən məlumatın düzgünlüyü üçün məsuliyyət daşımaq.
2.3.3 Avtorizasiya üçün yalnız Bankın göstərdiyi telefon nömrələri üzrə müraciət etmək, başqa təşkilatlara, habelə başqa telefon nömrələri üzrə müraciət etməmək.
2.3.4 Əməliyyatları Bankın müəyyən etdiyi tranzaksiya valyutaları ilə aparmaq. Müəssisə avtorizasiyanın həmin valyuta ilə daxil edilməsi üçün məsuliyyət daşıyır.
2.3.5 Əməliyyatın aparıldığı tarixdən etibarən 7 (yeddi) iş günündən gec olmayaraq, hesabları doldurulmuş toplu Hesabla birlikdə "AzəriKard"a təqdim etmək.
2.3.6 Hesabları aidiyyatı olmayan şəxslərə verməmək.
2.3.7 Doldurulmuş Hesabların surətlərini iki il müddətində saxlanılmasını təmin etmək, Bank və ya "AzəriKard" tələb etdikdə onları iki işgünü ərzində təqdim etmək.
2.3.8 Kartla alınmış mallar geri qaytarıldıqda bu Müqavilənin 5.5-ci bəndində göstərilən qaydalara uyğun olaraq kart sahiblərinə qaytarma hesabını yazmaq.
2.3.9 Doldurulmuş qaytarma hesablarının əsillərini doldurulmuş toplu hesabla birlikdə əməliyyat tarixindən sonra 7 (yeddi) iş günündən gec olmayaraq "AzəriKard"a təqdim etmək.
2.3.10 Başqa şəxslərdən alınmış Avadanlıqdan bu müqvilənin məqsədləri üçün istifadə etməmək.
2.3.11Bankdan aldığı Avadanlıqları başqa şəxslərə verməmək və Bankın qabaqcadan razılığı olmadan həmin şəxslərin Bankdan alınmış ləvazimatlardan istifadə etməsinə imkan verməyəcək. Bu tələbin pozulması nəticəsində dəyən zərərin məbləğini Banka ödəmək.
2.3.13. Bu Müqavilənin 2.2.2-ci bəndinə uyğun olaraq Bankdan qaytarma haqqında bildiriş aldıqda, bildirişdə göstərilən məbləği beş iş günündən gec olmayaraq Banka ödəmək.
2.3.14. Bankdan alınan reklam-məlumat vasitələrini Bankın müvafiq bölməsi ilə razılaşdırılmış yerlərdə və məntəqələrdə, Bankın səlahiyyət nümayəndəsinin iştirakı ilə yerləşdirəcək. Nümayiş etdirilən reklam vasitələrini (yapışdırılmış rəmzləri, nişanları və s.) Banka bildirmədən və onun nümayəndəsinin iştirakı olmadan ləğv etmək və başqa yerə keçirmək qadağandır.
2.3.15 Müəssisə "AzəriKard"ın texniki xidmətlərindən istifadə etmək hüququna malikdir (texniki xidmətlərin siyahısı və tarifləri əlavə olunur)
2.3.16 Müəssisə, aparılan geri ödəmə əməliyyatlarında qabaqcadan kart hesabından silinmiş məbləğdən (aparılmış əməliyyat məbləğindən) artıq məbləği qaytarmayacaqdır. Əks təqdirdə artıq məbləğ Müəssisədən tutulacaqdır.
2.3.17 Geri ödəmə əməliyyatının aparılmasından asılı olmayaraq qabaqcadan aparılmış əməliyyatın məbləğindən komisyon haqqı Müəssisədən tutulur.
2.3.18 Müəssisə Bankın kart sahiblərinə hər tranzaksiyada _____% güzəşt edəcəkdir.
2.3.19 Müəssisə POS-terminallar vasitəsi ilə AMEX növlü kartlara xidmət göstərərkən müştərinin PIN-pad vasitəsi ilə PIN-kod yığmasını təmin etməlidir (PIN-kod şəxsən müştərinin özü tərəfindən yığılmalıdır). Əks təqdirdə Chargeback halları baş verərsə (kart sahibi ödənişlərə etiraz edərsə), ödənişlər üzrə tam məsuliyyəti Müəssisə daşıyacaqdır.
2.3.20 Qanunvericiliklə başqa hal müəyyən edilməmişdirsə Müəssisə kart sahibindən pasportu və ya şəxsiyyətini təsdiq edən başqa sənədi tələb etmək hüququna malik deyil.
2.3.21 Müəssisə kartın dövlət mənsubiyyətindən asılı olmayaraq bütün ölkələrdə buraxılan kartları qəbul etməlidir.
2.3.22 Əgər Müəssisə 2.3.20-ci və 2.3.21-ci bəndlərində qeyd olunan şərtləri pozarsa və bunun nəticəsində Beynəlxalq ödəniş sistemləri Bankı cərimə edərsə həmin cərimə(lər) Bank tərəfindən Müəssisədən tutulacaq.
2.3.23 Bankın icazəsi olmadan, Müəssisə "Card not present" (Kartın iştiraki olmadan) tipli əməliyyatları həyata keçirə bilməz.
2.3.24 Müəssisə AzəriKardın əlavə xidmətlərindən istifadə edərsə, həmin xidmətlərin dəyərini AzəriKardın xidmət tariflərinə uyğun olaraq əlavə ödəyəcəkdir.
2.3.25 Müəssisə bu müqavilənin 1 N-li əlavəsinə uyğun olaraq, avadanlıq yerləşdirilən obyektin dəqiq ünvanını, telefon nümrələrini, müdirin adını və soyadını, baş mühasib olduğu halda onun adını vı soyadını, əlaqəli şəxsin adını, soyadını və VÖENi göstərməlidir. Müəssisə həmin məlumatların düzgünlüyünə görə, habelə bunların hər hansında dəyişiklik olduğu halda bu dəyişiklik barədə müqavilə üzrə digər tərəflərə mlumatın 3 (üç) iş günü ərzində verilməməsinə görə bilavasitə məsuliyyət daşıyır.
2.3.26 Bu müqavilə ilə müəyyən edilən Bankın və "AzəriKard"ın komisyon, pos-terminaldan istifadə və xidmət haqlarını ödəmək.

2.3.27 Pos-terminalın kassa aparatının yanında quraşdırılması məqsədi ilə, kassa aparatının yanına telefon xəttinin çəkilməsini və həmin telefon xəttinin işlək vəziyyətdə olmasını təmin etmək.

***2.4. AzəriKard aşağıdakıları, ohdəsinə götürür:***
2.4.1 Müəssisə və ya Bank müraciət etdikdə ödəniş kartların Müəssisə tərəfindən qəbul olunmasının texniki cəhətdən təmin olunması üçün xidmətlər göstərmək.
2.4.2 Müəssisələrdə texniki və ya hər hansı başqa işlərin görülməsini Bankın müvafiq xidmət bölməsi ilə razılaşdırmaq.
2.4.3 Müəssisədə maliyyə-kredit və başqa təşkilatların xeyrinə reklam işi və başqa iş görməmək.
2.4.4 Müəssisənin kartlarla apardığı əməliyyatlar haqqında heç bir məlumatı yaymamaq.
2.4.5 İstirahət və bayram günləri istisna olmaqla hər gün, bütün sutka ərzində avtorizasiya sorğularına xidməti və POS-terminalların texniki müşaiyət olunmasını təmin etmək, POS-terminallardan və avtorizasiya sorğularına xidmət zamanı imprinterlərdən istifadədə Müəssisənin əməkdaşlarına yardım göstərmək.
2.4.6 imprinterlərdən və POS- terminallardan istifadə etmək üçün Müəssisəni onun fəaliyyət dairəsinə uyğun texniki qaydalar ilə təmin etmək və onları Müəssisənin razılığı olmadan dəyişdirmək. Dəyişikliklərin qüvvəyə mindiyi tarixdən Müəssisə onların hamısını qeyd-şərtsiz qəbul edir.

**3. KOMİSYON HAQQLAR.**

3.1 Bank tərəfindən Müəssisədən tutulan komisyon haqqını (Bank komissiyası) bu Müqavilənin 3.6 bəndindəki göstəridiyi fəaliyyət növünə görə müvafiq faiz dərəcəsi, təşkil edir.
3.2 "AzəriKard"ın komisyon haqqı Bankla Azərikard arasında imzalanmış müqaviləyə əsasən tənzimlənir və Bank tərəfindən ödənilir.
3.3 Bank özünün komisyon haqqını Müəssisənin hesabına köçürməli olan məbləğlərdən tutur.
3.4 Bank qabaqcadan yazılı məlumat verməklə komisyon haqqının məbləğini birtərəfli şəkildə dəyişdirə bilər. Komisyon haqqı çıxıldıqdan sonra Bank qalan məbləği AZN ilə Müəssisənin hesabına köçürür.
3.5 Müəssisəyə ödəniləcək məbləğ onun digər banklardakı hesabına köçürüldükdə, Bank Müəssisədən ödəmənin 0,15%-i (azı=1(bir) AZN; çoxu=100 (bir yüz) AZN) məbləğində əlavə komisyon haqqı tutur.

**3.6 AMERICAN EXPRESS CARD - faiz dərəcələri**

| | |
|---|---|
| Avomobil icarəsi | 3.50% |
| Təhsil | 4.50% |
| İdman və sağlamlıq | 4.50% |
| Yanacaq | 3.00% |
| Yerli aviasiya | 3.50% |
| Hotel/mənzil icarəsi | 4.00% |
| Gecə klubu | 5.00% |
| Dəmir yolu/nəqliyyat | 3.00% |
| Taksi | 3.50% |
| Restoran/yeməkxana | 4.00% |
| Topdan/pərakəndə satış | 4.00% |
| Rabitə | 4.50% |
| Səyahət şirkəti | 3.00% |
| Digər xidmətlər | 4.00% |

3.7 Əməliyyatın POS-terminal və ya İmprinterdə aparılmasından asılı olmayaraq komisyon haqqı vahid formada tətbiq edilir.

**4. AZƏRİKARDIN XİDMƏTLƏRİNƏ GÖRƏ HESABLAŞMA QAYDASI.**

4.1 "AzəriKard"ın Müəssisəyə göstərdiyi əlavə xidmətlərin haqqı bu Müqaviləyə əlavə olunan AzəriKardın tarifi ilə müəyyən edilir.
4.2 Müəssisə "AzəriKard"a əlavə xidmətlərinin haqqını AzəriKardın təqdim etdiyi hesab əsasında, bu hesabın təqdim edildiyi gündən etibarən beşinci iş günündən gec olmayaraq ödəməlidir. Müəssisənin tədiyə tapşırığının tarixi ödəniş tarixi hesab edilir.
4.3 "AzəriKard" bu müqavilənin 4.2-ci bəndində qeyd olunan əlavə xidmətlərin haqlarının Müəssisədən tutulması üçün Banka müraciət edə bilər.

**5. ƏMƏLİYYATLARIN APARILMASI QAYDALARI**

5.1 Əməliyyatların aparılmasının texniki qaydaları haqqında təlimat "AzəriKard" tərəfindən təqdim olunur və Müəssisə bu qaydalara riayət etməlidir. Əməliyyat aparmaqdan əvvəl yəqin etmək lazımdır ki:
Kart üzərində Bank tərəfindən qəbuluna icazə verilən kart rəmzləri və qoruyucu əlamətləri vardır;
Kartda zədələr və saxtalaşdırma izləri yoxdur;
Kartın üz tərəfində göstərilən etibarlılıq müddəti başlanmış və hələ qurtarmamışdır;
Kart sahibinin imzası kartın arxa tərəfində xüsusi olaraq ayrılmış yerdə qoyulmuşdur.
Xəbərdaredici siyahıda Kartın nömrəsi yoxdur (əgər Müəssisə üçün hədd müəyyən edilmişdirsə).
5.2 Bir əməliyyatın məbləğini bir neçə hissələrə bölmək qadağandır.
5.3 Əməliyyatın başa çatdırılması məqsədi ilə avtorizasiya üçün Bankın göstərdiyi telefon nömrəsi ilə müraciət etmək lazımdır. Mənfi cavab alındıqda, əməliyyat dayandırılmalı və kart sahibinin yanında hesab ləğv edilməlidir. Müsbət cavab alındıqda, avtorizasiyanın məlumat verilmiş kodu hesabda xüsusi olaraq ayrılmış yerə yazılmalıdır.
5.4 Müəssisənin Banka təqdim etdiyi hesablarda aşağıdakılar mütləq olmalıdır:
- Kartın sahibi haqqında kartda həkk olunmuş məlumat;
- Müəssisə haqqında imprinterin klişesində həkk olunmuş məlumat;
- Kart sahibinin imzası;
- Əməliyyat tarixi;
- Əməliyyatın tranzaksiya valyutası ilə məbləği;
- Avtorizasiya kodu.
5.5 Avtorizasiya kodunun alınmasından başqa qaytarma hesabları eyni qaydada hesab vərəqəsinə doldurulur. Qaytarma hesabının bütün nüsxələrində Müəssisəyə aid olan məlumat hissəsində asan oxunan aydın xəttlə CREDİT sözü yazılmalıdır.
5.6 Aşağıdakı hallarda hesab etibarsız sayılır:
- Əməliyyat bu Müqavilənin müddəaları pozulmaqla aparıldıqda;
- Hesabdakı imza kartdakı imza ilə eyni olmadıqda;
- Hesabın Banka verilmiş surəti hesabın kart sahibinə verilmiş surətinə uyğun gəlmədikdə;
- Əməliyyat aparılan anda kartın etibarlılıq müddəti qurtardıqda və ya hələ başlanmadıqda;
- Avtorizasiya istənilməmiş, alınmamış və ya başqa yerdən alınmış olduqda;
- Hesab tam doldurulmadıqda və ya bu Müqavilədə müəyyən edilmiş qaydaları pozmaqla doldurulduqda;
- Hesab Banka əməliyyat tarixindən etibarən yeddi iş günü keçdikdən sonra təqdim edildikdə;
- Hesab Bankın Müəssisəyə verdiyi aparatdan deyil, başqa aparatdan keçirilmiş olduqda;
- Başqa təşkilatların hesablarından istifadə edildikdə və ödəniş üçün onların hesabları təqdim olunduqda.
5.7 Yuxarıda qeyd olunanlara baxmayaraq, əgər Bank düzgün rəsmiləşdirilməmiş slipin ödənişininmümkünlüyünü aydınlaşdırmaq məqsədilə onu qəbul etmiş, lakin ödəməmişdirsə, Müəssisənin heç bir narazılıq bildirməyə hüququ yoxdur. Yuxarıda göstərilən tranzaksiyalar ödənildikdə Bank, tədiyyə sistemləri tərəfindən eyni əməliyyat aparılarkən məbləği geri götürmək hüququna malikdir. Bank öz növbəsində heç bir narazılıq irəli sürmür və slipin düzgün rəsmiləşdirilmədiyi haqqında Müəssisəyə məlumat verir.
5.8. Müəssisənin bir kart sahibi ilə bir gün ərzində apardığı bütün əməliyyatlar bir ümumi məbləğ kimi qəbul edilir. Bu məbləğ Müəssisənin limitindən artıq olduqda avtorizasiya aparılır. Müəssisə avtorizasiya kodunu slipdə xüsusi olaraq ayrılmış yerə yazır. Kod olmadıqda və ya Müəssisə avtorizasiyadan boyun qaçırmaq üçün bir neçə slip təqdim etdikdə, Bankın ixtiyarı var ki, slipi ödəməsin. Slip səhvən ödənildikdə, Bank ödədiyi məbləğin geri qaytarılmasını tələb edə bilər. Müəssisə Bankın bütün qeydlərının düzgünlüyünü qəbul edir.
5.9 Müəssisə, Bank tərəfindən quraşdırılmış avadanlıqları yalnız bu Müəssisənin mal və xidmətlərinin həqiqi kart sahibinə satışı üçün istifadə edə bilər.
6. Müəssisə Bankın aşağıdakı avtorizasiya həddlərini və tranzaksiya valyutalarını qəbul edir:
American Express 0

Tanzaksiya **Azərbaycan manatı** ilə aparılır
Bank bu həddləri istənilən vaxt dəyişdirə bilər.
Dəyişikliklərin qüvvəyə mindiyi tarixdən Müəssisə onların hamısını qeyd-şərtsiz qəbul edir.

**7.TƏRƏFLƏRİN MƏSULİYYƏTİ**

7.1 Müqavilədə nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməməsi və ya lazımınca yerinə yetirilməməsinə görə tərəflər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə və bu Müqavilənin şərtlərinə əsasən məsuliyyət daşıyırlar.
7.2 Müəssisə ilə kart sahibləri arasında mübahisə və ixtilafların Müqavilənin mövzusuna aid olmadığı bütün hallarda həmin mübahisə və ixtilaflar üçün, eləcə də kartlardan istifadə edilməklə alınmış (haqqı ödənilmiş) mallar (xidmətlər) ilə bağlı mübahisələrə və ixtilaflara görə Bank və AzəriKard məsuliyyət daşımırlar.
7.3 Bu Müqavilənin 2.3.14-cü bəndində nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməməsinə görə Müəssisə gecikdirilən hər gün üçün Banka ödəniş məbləğindən 0,1% miqdarınadək cərimə ödəyir.
7.4. Bu müqavilənin 4.2-ci bəndində nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməməsinə görə Müəssisə gecikdirilmiş hər gün üçün "AzəriKard"a ödəniş məbləğindən 0,1% miqdarında cərimə verir.
7.5 Bank müstəgil şəkildə bu Müqaviləni dəyişdirmək hüququna malikdir.
7.6 Bu müqavilənin 2.3.21-cı və 2.3.23-cı bəndində nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməməsinə görə, o cümlədən kart sahiblərinə pos-terminal vasitəsi ilə əməliyyatların aparılmasına etiraz etdiyinə görə və bu kimi digər hallarda Müəssisə Banka 1.000 (bir min) AZN məbləğində cərimə ödəyir.

**8.FORS-MAJOR HALLARI**

8.1 Müqavilə bağlandıqdan sonra, Tərəflərin nə əvvəlcədən görə bilmədikləri, nə də görülə biləcək tədbirlərlə təsir etməyə qadir olmadıqları hadisələr nəticəsində qarşısı alınmaz qüvvə şəraiti yarandıqda və bu səbəbdən Müqavilə üzrə öhdəliklər qismən və ya tamamilə yerinə yetirilmədikdə Tərəflər həmin müddətə məsuliyyətdən azad edilirlər.
8.2 Qarşısıalınmaz qüvvə hallarına o hadisələr aiddir ki, Tərəflər onlara təsir göstərə bilmir və onların meydana gəlməsi üçün məsuliyyət daşımırlar, məsələn, zəlzələ, daşqın, yanğın habelə tətil, dövlət orqanlarının qərarları, bu Müqavilənin yerinə yetirilməsinə mane olan hər hansı xarakterli hərbi əməliyyatlar, terror aktlar.
8.3 Qarşısıalınmaz qüvvə hallarına istinad edən Tərəf bu halların baş verdiyi haqqında digər Tərəfə dərhal yazılı məlumat verməlidir.
8.4 Əgər öhdəliklərin yerinə yetirilməməsi 6 aydan çox davam edərsə, hər bir tərəf digər tərəfə bildirməklə Müqaviləni birtərəfli qaydada ləğv etmək hüququna malikdir.

**9. MÜBAHİSƏLƏRİN TƏNZİMLƏNMƏSİ**

9.1 Tərəflər Müqavilədən və ya Müqavilə ilə bağlı qarşıya çıxa biləcək mübahisə və ixtilafları danışıqlar yolu ilə həll etmək üçün bütün tədbirləri görəcəklər.
9.2 Tərəflər narazılıqlara onların alındığı gündən etibarən on gün ərzində baxacaqlar.
9.3 Tərəflər razılığa gələ bilmədikdə, mübahisə və ixtilaflara Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinin tələblərinə uyğun olaraq məhkəmə orqanlarında baxılmalıdır.

**10. MÜQAVİLƏNİN QÜVVƏYƏ MİNMƏSİ VƏ ETİBARLILIQ MÜDDƏTİ**

10.1 Müqavilə imzalandığı tarixdən qüvvəyə minir və Tərəflərdən heç biri onu ləğv etmədiyi təqdirdə qüvvədə qalır.
10.2 Müəssisə tərəfindən Bankın kartlarla işləyən müvafiq struktur bölməsinə verilmiş və bu Müqavilənin ayrılmaz hissəsi olan ödəniş kartlarının qəbulunun təşkili haqqında ərizədə göstərilmiş məlumatların düzgün və dolğun olmadığı təqdirdə bu Müqavilə etibarsız sayılır.
10.3 Bank üç gün qabaqcadan Müəssisəyə yazılı xəbərdarlıq etməklə Müqaviləni birtərəfli qaydada ləğv edə bilər. Müəssisə Bankın qarşısında olan bütün ödəliklərini yerinə yetirdikdən sonra otuz gün qabaqcadan Banka yazılı xəbərdarlıq etməklə Müqaviləni birtərəfli qaydada ləğv edə bilər. Bu halda tərəflər düzgün aparılmamış hesablaşmalar barəsində bir-birinə narazılıqlarını Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun surətdə bildirirlər.
10.4 Müqavilə ləğv edildikdə, müqavilənin 2.3.14-cü bəndi Müəssisə öz öhdəliklərini tamamilə yerinə yetirənədək qüvvədə qalacaqdır.

**11.DİGƏR SƏRTLƏR**

11.1 Bu Müqavilə çərçivəsində Müəssisənin aldığı məlumat (kartların sayları, kart sahiblərinin adları və s.) tam məxfidir və Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna edilməklə üçüncü şəxslərə verilə bilməz. Bank ticarət və ya American Express kart köcürmələri haqqında məlumatı Amerikan Express-ə verə bilər.
11.2 Müqavilədə bütün dəyişikliklər və əlavələr müqavilənin ayrılmaz hissələri hesab edilir və yalnız yazılı şəkildə və onları hər üç tərəf imzaladıqda etibarlıdır. Bank və/və ya Azəricard istənilən vaxt birtərəfli qaydada müqaviləni dəyişmək hüququna malikdir
11.3 Bank və/və ya Azəricard istənilən vaxt və səbəb göstərilmədən müqaviləyə xitam vermək hüququna malikdir.
11.4 Bu Müqavilə Müəssisənin Amex kart sahiblərinin digər ödəniş sistemınə və ya kart ödənişlərinin nağd ödənişlərə qarşı ayrıseçkiliyə yol verməməsini tələb edir.
11.5 Amerikan Express-ilə əlaqəli xərcləri Bank AZN valyutası ilə ödəyəcəkdir.
11.6 Bank və ya Azəricard müqaviləyə əsasən Xidmət Təchizatçının əvvəlcədən razılığı olmadan öz hüquq və səlahiyyətlərini (və ya onların bir hissəsini) üçüncü tərəfə verə bilər.
11.7 Müqavilədə şərh edilmiş məsələlər barəsində tərəflərin Müqavilə imzalanandan əvvəl mövcud olmuş bütün saziş, danışıq və yazışmaları Müqavilənin imzalandığı tarixdən etibarən qüvvədən düşür.
11.8 Müqavilə dörd nüsxədə, tamamilə eyni və bərabər hüquqi qüvvəyə malik tərtib edilmişdir.

**12. TƏRƏFLƏRİN HÜQUQİ ÜNVANLARI VƏ İMZALARI**

| **Royal Bank** | **"AzəriKard"** | **Müəssisə** | |
|---|---|---|---|
| | | Fiziki/hüquqi şəxsin adı: | |
| Hüseyn Cavid pr., 5 | Nizami küçəsi, 67, | VÖİN | |
| Bakı, AZ1073, Azərbaycan | Bakı, AZ1005, Azərbaycan | Direktor | |
| | Baş direktor | | |

______________________________ ___________________________ _____________________________

**Əlavə No1**

| | |
|---|---|
| Fiziki/hüquqi şəxsin adı: | |
| Hüquqi ünvan: | |

| | S.A.A | Telefon | Faks |
|---|---|---|---|
| Müdir | | | |
| Baş mühasib | | | |
| Əlaqə saxlanacaq şəxs | | | |

| | |
|---|---|
| Bank | |
| Manat hesabı:: | |
| Valyuta hesabı: | |
| VÖİN | |

Məntəqə haqqında məlumat

| No | Obyektin adı | Fəaliyyət sahəsi | Faktiki ünvan | Obyektin uçot kodu | Terminalın seriya nömrəsi |
|---|---|---|---|---|---|
| 1 | | | | | |
| 2 | | | | | |
| 3 | | | | | |
| 4 | | | | | |
| 5 | | | | | |

Müdirin imzası

_______________________________

Avtorizasiya üçün və ya texniki nasazlığla əlaqədar bu telefonlara zəng vurmalı:
598 01 41
Bütün başqa məsələlər üçün Bankın plastik kartlar şöbəsinə müraciət etməli: 493-03-07 faks: 498-75-60